# Azərbaycan-Türkiyə birliyi regionda inkişafa və təhlükəsizliyə təminat yaradır



Oktyabrın 21-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilan Beynəlxalq Hava Limanının açılışını etmələrini xalqımız böyük sevinc və qürurla izlədi. Zəngilanın erməni işğalından azad edildiyi gündə belə irimiqyaslı regional layihənin reallaşması iki qardaş ölkənin dünyaya verdiyi növbəti mesaj idi. Türkiyə 44 günlük Vətən müharibəsində Azərbaycana necə siyasi və mənəvi dəstək göstərmişdisə, bu gün də quruculuq işlərində, digər bütün məsələlərdə onun yanındadır.

Dövlət başçıları bir sıra digər obyektlərin də təməlini qoydular, müəssisələrin açılışında iştirak etdilər. Bütün bunlar onu göstərir ki, Azərbaycanla Türkiyənin birgə səyləri ilə bölgənin geosiyasi mənzərəsini dəyişən və ona yeni məzmun gətirən layihələr planlı şəkildə və əzmlə həyata keçirilir.

4

Milli Məclisin iclasında

# Azərbaycan-Türkiyə birliyi regionda inkişafa və təhlükəsizliyə təminat yaradır





*Əvvəli 1-ci səh.*

Xalqlarımızın və dövlətlərimizin dostluğu və qardaşlığı bizim ən böyük sərvətimiz və güc mənbəyimizdir.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Zəngilandan dünyaya verilən bir mesaj da ondan ibarət idi ki, Prezident İlham Əliyevin dediyi kimi, biz öz torpaqlarımıza əbədi qayıtmışıq, vandalların viran qoyduğu Qarabağı və Şərqi Zəngəzuru çiçəklənən diyarlara çevirəcəyik. Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsi və həyata keçirilən digər quruculuq işləri məhz bu məqsədə yönəlib.

Spiker qeyd edib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bölgəyə hər səfərlərində olduğu kimi, bu dəfə də Füzulidə, Cəbrayılda, Qubadlıda və Zəngilanda bir sıra infrastruktur obyektlərinin və yaşayış binalarının təməlini qoydular. Hesab edirəm ki, geniş vüsət alan bərpa-quruculuq işləri Böyük qayıdışın getdikcə daha yaxından eşidilən addım səsləridir. Biz əminik ki, bölgənin iqtisadi dirçəlişi ilə bağlı bütün layihələr uğurla başa çatdırılacaq. Köçkünlük həyatı yaşayan soydaşlarımızın yurd həsrətinə son qoyulacağı gün uzaqda deyil.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr keçirilib. Komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlar Fəzail Ağamalı, Rəşad Mahmudov, Azay Quliyev, Tural Gəncəliyev, Elşad Mirbəşir oğlu, Əli Məsimli, Razi Nurullayev, Jalə Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində iştirakı barədə fikirlərini bildiriblər. Bu hadisəni Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin növbəti bariz nümunəsi kimi dəyərləndiriblər. Qeyd edilib ki, kommunikasiyaların açılışı bölgədə davamlı sülhün, sabitliyin bərqərar olması, region ölkələri arasında əməkdaşlığın inkişafı üçün ən vacib amillərdəndir.

Deputatlar həmçinin ATƏT-in birtərəfli qaydada Ermənistana missiya göndərməsinə münasibət bildiriblər. Bunun heç bir əsası olmadığını və heç bir əhəmiyyət daşımadığını söyləyiblər. Deputatlar Azərbaycanın yeni geosiyasi reallıqlara çox diqqətlə yanaşdığını, ölkəmizin bölgədə davamlı sülhün təmin edilməsinə yönəlmiş fəaliyyətini vurğulayıblar.

Çıxışlarda Heydər Əliyev Fondunun və fondun prezidenti Mehriban xanım Əliyevanın xeyriyyəçilik sahəsində ölkə daxilində və xaricdə səmərəli fəaliyyəti təqdir edilib.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, iclasda 50 məsələ müzakirə olunacaq. Bildirib ki, ilk üç məsələ beynəlxalq sənədlərin təsdiq edilməsi ilə bağlı olan qanun layihələridir. "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanununa uyğun olaraq, bu layihələr bir oxunuşda baxılıb qəbul ediləcək.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslərin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsi haqqında məlumat verib. Bildirilib ki, saziş iki ölkə arasında dostluq münasibətlərinin genişləndirilməsi və inkişaf etdirilməsinə, habelə diplomatik və xidməti pasportlara malik şəxslər üçün öz ərazilərində səyahət prosedurlarının sadələşdirilməsinə xidmət edir.

Sənədə uyğun olaraq bir dövlətin etibarlı diplomatik və xidməti pasportlara malik olan, müvafiq ölkələrin ərazisində akkreditə olunmamış vətəndaşları digər dövlətin ərazisinə səfər etmək, oradan tranzit keçmək, getmək və ya orada hər 180 gün ərzində 90 gündən artıq olmayan müddətdə qalmaq məqsədilə daxil olmaq üçün viza əldə etmək öhdəliyindən azad edilir. Tərəflər təhlükəsizlik, ictimai asayış və ya ictimai sağlamlıq səbəblərindən bu sazişin tətbiqini müvəqqəti olaraq, tamamilə və ya qismən dayandırmaq hüququnu özündə saxlayır.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında sosial təminat haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirilib ki, saziş tərəflər arasında sosial təminat sahəsində qarşılıqlı münasibətlərin tənzimlənməsi məqsədilə imzalanıb. Tərəflərdən birinin və ya hər ikisinin qanunvericiliyinin təsir dairəsinə düşən və ya düşmüş vətəndaşlarına, onların ailə üzvlərinə şamil olunur. Sazişə əsasən tərəflərdən birinin qanunvericiliyinə əsasən təyin olunmuş pensiya digər tərəfin ərazisində və ya üçüncü dövlətin ərazisində yaşayan pensiyanı alana ödənilir. Sənəddə pensiyaların ödənilməsi, pensiya hüququnun müəyyən edilməsi, pensiyanın hesablanması, məlumat mübadiləsi və qarşılıqlı yardım, ötürülən məlumatların konfidensiallığı və digər məsələlərlə bağlı müddəalar öz əksini tapıb.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənəd barədə bu komitənin rəyini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məzahir Əfəndiyev "Beynəlxalq yük daşınması müqaviləsi (BYDM) haqqında" Konvensiyaya elektron əmtəə-nəqliyyat qaiməsi ilə bağlı" Əlavə Protokola qoşulmaq barədə qanun layihəsi ilə bağlı diqqətə çatdırıb ki, bu əlavə protokolun məqsədi məlumatların elektron qeydiyyatı və işlənilməsi üçün istifadə olunan prosedurlar vasitəsilə əmtəə-nəqliyyat qaiməsinin istəyə görə hazırlanması qaydalarının sadələşdirilməsidir.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, ölkəmizdə açıq hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı uğurla həyata keçirilməkdədir. Plana uyğun olaraq əhaliyə göstərilən elektron xidmətlər genişləndirilir və bu sahədə işin daha da təkmilləşdirillməsi üçün bir sıra qanunlarda dəyişiklik edilməsi zərurəti yaranıb. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Milli Məclisə bir məktubda 47 qanun layihəsini təqdim edib. Qanun layihələri mahiyyətcə bir-birinə yaxındır və birinci oxunuşda müzakirə ediləcək.

İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Azər Badamov "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, layihə Azərbaycan Prezidentinin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.2-ci bəndinə əsasən hazırlanıb. Belə ki, qanunun 12-ci maddəsinə təklif olunan əlavəyə əsasən, bu maddənin ikinci və üçüncü hissələrində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar dini qurumdan tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi dini qurumun razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından tələb olunur və ya dini qurum tərəfindən təmin edilir.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili gündəliyin 5-ci məsələsindən 22-ci məsələsinədək olan növbəti 18 qanun layihəsini təqdim edib. Komitə sədri bildirib ki, "İnzibati icraat haqqında" qanuna görə elektron informasiya sistemi vasitəsi ilə mübadilə edilən sənədlər elektron sənəd formatında olmalıdır, yəni elektron imza ilə imzalanmış sənədlər olmalıdır. Təqdim olunan layihələrə uyğun olaraq ərizəçidən heç bir sənəd tələb olunmur, yalnız sahəvi qanunlarda müəyyən olunmuş siyahı üzrə ərizəyə əlavə olunan sənədlərin elektron informasiya sistemi vasitəsi ilə ötürülməsi nəzərdə tutulur.

Qeyd edilib ki, ölkə Prezidentinin müvafiq fərmanı ilə Azərbaycanda dövlət informasiya sistemlərinin yaradılması qaydaları müəyyən olunub. Bu qaydalara əsasən, Elektron Hökumət İnformasiya Sisteminin Əsasnaməsinin təsdiq edilməsi və dövlət informasiya sistemlərinin reyestrinin yaradılması nəzərdə tutulub. Qanunların icra edilməsi üçün qeyd olunan əsasnamənin təsdiq edilməsi və yaradılan reyestrdə məlumatların öz əksini tapması vacibdir.

Komitə sədri təqdim olunan qanun layihələrini Azərbaycanda elektron hökumət və dövlət-vətəndaş münasibətlərinin inkişafında yeni mərhələnin başlanması kimi dəyərləndirib.

Təqdim olunan sənədlərin mahiyyəti ilə bağlı diqqətə çatdırılıb ki, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri əsasən adıçəkilən qanunların müvafiq maddələrində təsbit olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar vətəndaşdan tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi vətəndaşın razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından tələb olunur və ya vətəndaş tərəfindən təmin edilir.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin növbəti 16 məsələsinə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb və 23-38-ci məsələlər barədə məlumat vermək üçün sözü komitənin üzvü Kamal Cəfərova təqdim edib.

O, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Pasportlar haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "İnzibati icraat haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş), Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli 421-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (birinci oxunuş), Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (birinci oxunuş), Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (birinci oxunuş), Azərbaycan Respublikasının 2007-ci il 10 aprel tarixli 267-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri ilə bağlı məlumat verib.

Bildirilib ki, bu layihələrdə də təklif olunan dəyişikliklərin məqsədi dövlət xidmətlərinin göstərilməsi üçün zəruri olan sənəd və məlumatın digər dövlət qurumunda mövcud olduğu halda, vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsi ilə müvafiq dövlət qurumundan alınmasının təmin olunmasıdır.

Spiker gündəliyin 39-cu və 40-cı məsələlərinə - "Seleksiya nailiyyətləri haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və "Torpaq icarəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrinə Aqrar siyasət komitəsində baxıldığını bildirib.

Məsələlərə dair məlumat verən Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, layihədə təklif olunan dəyişikliklərə görə, patent almaq üçün, torpaqların icarəyə verilməsi zamanı zəruri olan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

Milli Məclisin Sədri bildirib ki, növbəti üç məsələyə, yəni 41-ci, 42-ci və 43-cü məsələlərə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" qanunda, "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda və "Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi ilə bağlı birinci oxunuşda müzakirəyə çıxarılan qanun layihələri barədə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verib. Ziyafət Əsgərov bildirib ki, hər üç məsələ Azərbaycan Prezidenti tərəfindən təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.2-ci bəndinə əsasən hazırlanıb.

Qanun layihələrinin qəbulu vətəndaşların sənəd və ya məlumatın toplanması və təqdim edilməsi ilə bağlı problemlərinin aradan qaldırılmasına və vaxt itkisinin azaldılmasına, bu əsasda vətəndaş məmnunluğunun artırılmasına, habelə ölkədə Elektron Hökumət İnformasiya Sisteminin funksionallığının daha da yüksəldilməsinə xidmət edəcək.

Gündəliyin 44-cü məsələsi olan "Ətraf mühitin mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) haqqında Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Fatma Yıldırım məlumat verib. O bildirib ki, layihədə "Ətraf mühitin mühafizəsi haqqında" qanunun 52-ci - "Dövlət ekoloji ekspertizasına dair tələblər" maddəsinə təklif olunan dəyişiklik də mahiyyətcə eynidir və Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.2-ci bəndinə əsasən hazırlanıb.

Qanun layihəsinin qəbulu vətəndaşların sənəd və ya məlumatın toplanması və təqdim edilməsi ilə bağlı problemlərinin aradan qaldırılmasına və vaxt itkisinin azaldılmasına, bu əsasda vətəndaş məmnunluğunun artırılmasına, habelə ölkədə Elektron Hökumət İnformasiya Sisteminin funksionallığının daha da yüksəldilməsinə və qurumlararası elektron inteqrasiyanın gücləndirilməsinə xidmət edəcəkdir.

Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova təqdim edib. Bildirib ki, layihədə Ailə Məcəlləsinin 164-cü maddəsinə təklif olunan dəyişikliyə görə, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı üçün tələb olunan sənədlərlə bağlı eyni rejim tətbiq edilir və bu zaman da zəruri olan sənəd və məlumatın digər dövlət qurumunda mövcud olduğu halda, vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsi ilə müvafiq dövlət qurumundan alınması təmin olunur.

"Elektron imza və elektron sənəd haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə məlumatı isə Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev təqdim edib. Bildirib ki, layihədə qanuna yeni 9.2-1-ci maddə əlavə edilir ki, bu da Sertifikat Xidmətləri Mərkəzinin qeydiyyata alınması üçün müvafiq sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsini nəzərdə tutur.

Spiker Sahibə Qafarova gündəliyin 47-ci məsələsi olan "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" qanunda dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi (birinci oxunuş) barədə məlumat vermək üçün sözü Beynəlxalq münasibətlər və parlamentlərarasi əlaqələr komitəsinin sədri Səməd Seyidova təqdim edib. Səməd Seyidov bu layihədə də yuxarıda bəhs edilən tələbin adıçəkilən sahəvi qanunda təsbit edildiyini bildirib.

Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov gündəliyin son üç məsələsini - "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Sosial müavinətlər haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və "Sosial xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrini təqdim edib.

Təklif olunan dəyişikliklərin sosial xidmətlərə əlçatanlığın artırılması baxımından vacibliyini qeyd edən deputat adıçəkilən qanunların daha çox əhalinin həssas qruplarının sosial təminatının gücləndirilməsi məqsədi daşıdığını bildirib. Qeyd edilib ki, həmin istiqamətlərdə elektron xidmətlərdən daha çox istifadə edilməsi vətəndaşlarımızın sosial xidmətlərə əlçatanlığını artırmaqla yanaşı, həm də onların sosial təminatının daha qısa zamanda gücləndirilməsinə və bu istiqamətdə islahatların davam etdirilməsinə imkan yaradacaq.

Təqdim olunan sənədlər ətrafında müzakirələr aparılıb. Yekunda 47 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2022.-22 oktyabr.- S.1; 4.